


HADİSƏLƏR KONTEKSTİNDƏ




**Maşın döngələri buruldUqca yaşıl meşələr, təkrarsız mənzərələr, mavi Xəzərə qovuşmağa tələsən dağ çayları, müasir üslubda salınmış istirahət mərkəzləri xoş ovqat, gözəl təəssüratlar yaradır. Hündürlüyü 34 metrə çatan məşhur Yardımlı şəlaləsi yolun 25-ci kilometrliyində qarşımıza çıxır. Dəniz səviyyəsindən təxminən 800 metr yüksəklikdə yerləşən şəlalədən ətrafa gözəl panoram açılır.**

# Dövlət qayğısı Yardımlıya yeni nəfəs, həyat gətirib



## Ümummilli Liderin inkişaf strategiyasının uğurlu davamı



Bu yerlər sözün əsl mənasında təbiət muzeyidir. Hər tərəf göz oxşayır. Sıldırım qayalar, uca dağlar, daş abidələr ulu keçmişə şahidlik edir. Yardımlı zəngin tarixə, füsunkar təbiətə malik ən qədim yurd yerlərimizdən biridir. Talış dağlarının Peştəsər və Burovar silsilələri arasında, Viləş çayının sahillərində qərar tutub.

Dağlar diyarı 1930-cu ildən Vərgədüz, 1938-ci ildən isə Yardımlı rayonu adlandırılıb. Ucqar dağ rayonunun sosial-iqtisadi, mədəni inkişafı dünyaşöhrətli dövlət xadimi, xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin hakimiyyətdə olduğu 1970-ci illər rayonun həyatında dirçəliş, yüksəliş, intibah dövrü kimi yaddaşlarda qalıb. Yardımlılar bu gün də dahi rəhbərin misilsiz qayğısını böyük məhəbbətlə, ehtiramla xatırlayırlar.

1998-ci il iyul ayının 9-da təbiət cənub bölgəsini sınağa çəkdi. Baş vermiş dəhşətli zəlzələ nəticəsində Yardımlı rayonunun da təsərrüfatlarına və yerli sakinlərin şəxsi əmlaklarına böyük ziyan dəydi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1998-ci il iyul ayının 14-də respublikanın şəhər və rayon icra hakimiyyəti başçılarının iştirakı ilə keçirilən müşavirədə zəlzələnin nəticələrini aradan qaldırmaq üçün konkret göstərişlər verdi, qarşıda duran vəzifələr müəyyənləşdirildi.

Müşavirədə Yardımlı Rayon İcra Hakimiyyətinin sabiq başçısı, mərhum Əli Quliyevin rayonun iqtisadiyyatı haqqında məlumatı müdrik rəhbərin dərhal diqqətini cəlb etdi. Ulu öndər dedi: "Yardımlı Rayon İcra Hakimiyyətinin başçısı rayonun iqtisadi göstəriciləri haqqında mənə bir neçə rəqəm dedi və bu məni sevindirdi. Çünki mən Yardımlı rayonunu yaxşı tanıyıram. Keçmişdə biz çox çalışırdıq ki, rayonda kənd təsərrüfatı müəyyən qədər inkişaf etsin, insanlar yaxşı yaşaya bilsinlər. Ancaq onu istənilən səviyyəyə qaldıra bilmirdik. Lakin rayon icra hakimiyyətinin başçısı bu gün mənə çox yaxşı rəqəmlər dedi. Bu rəqəmlər özü-özlüyündə göstərir ki, bizim iqtisadi siyasətimiz nə qədər düzgündür və onun necə gözəl nəticələri vardır. Ola bilər, burada əyləşənlərin bəziləri Yardımlı rayonunu tanıyır, çoxları isə o qədər tanımır. Amma mən Yardımlı rayonunu yaxşı tanıyıram. Mən Yardımlı rayonunda ilk dəfə 1960-cı ildə olmuşam. Yardımlı və Lerik o vaxt Azərbaycanın ən kasıb dağlıq rayonlarından idi. Ona görə də mən Azərbaycana rəhbərlik edərkən çox çalışırdım ki, iqtisadi cəhətdən ən geridə qalmış rayonların iqtisadiyyatını inkişaf etdirim. 1970-1980-ci illərdə kənd rayonlarının əksəriyyətinin iqtisadiyyatı çox yüksəldi.

Burada düzgün qeyd edildi ki, 1975-ci ildə dağlıq rayonların sosial-iqtisadi problemlərinin həll olunması ilə əlaqədar böyük bir qərar qəbul etdik. Həmin qərara əsasən bu rayonların inkişaf etdirilməsi üçün çox iş görüldü. Lerik, Yardımlı rayonları üçün nəzərdə tutulan xüsusi bir tədbir də ondan ibarət idi ki, biz orada üzümçülüyü geniş tətbiq etməyə başladıq. O vaxt Azərbaycanda üzümçülüyün tətbiq olunması tarixi bir hadisə idi. Biz üzümçülüyü dövlətin, sovet hakimiyyətinin bu sahəyə ayırdığı vəsait hesabına tətbiq edirdik. O dövrdə uzun müddət zəhmət haqqı ala bilməyən adamlara üzüm bağlarını şumlamaq, əkmək, becərmək üçün hələ məhsul götürmədən beş il ərzində yüksək əmək haqqı verilirdi. Mən dediyim bu beş il üzüm bağlarının məhsul verməsi müddətidir. Amma bizim saldığımız bağlar əslində o vaxt üç ildən sonra bəhrə verirdi, məhsul gətirirdi. Yenə də deyirəm, amma üzümçü məhsul götürmədən beş il müddətində məvacibini alırdı. Bilirsiniz ki, bu, rayonların çoxunda inkişafa səbəb oldu, nə qədər insan özü üçün ev tikdi, rayonlar abadlaşdı".

1980-ci ildə rayonda üzüm plantasiyaları 2800 hektara, məhsul istehsalı 8400 tona çatdırılıb. Sırıq və Aşağı Astanlı kəndlərində üzüm emalı müəssisələri inşa edilib. Aqrar sahənin sənaye təməli üzərində intensiv inkişafına xüsusi diqqət yetirilib. İlboyu özünə iş tapan kəndlinin vəziyyəti, güzəranı yaxşılaşıb, həyat tərzi yüksəlib. Kəndlərə rahat yollar çəkilib, sakinlər yaraşıqlı evlər tikiblər. Rayon mərkəzində stadion, mədəniyyət evi, xalça sexi, xəstəxana, məktəb, inzibati və çoxlu yaşayış binaları inşa edilib, park salınıb.

Müşavirədə Ümummilli Lider rayonun sosial-iqtisadi inkişafına, sosial problemlərin həllinə diqqət çəkərək deyib: "Mən 1960-cı ildə o rayona ilk dəfə gəlmişdim. Orada evlərə baxdım, hamısı palçıqdan idi, heç kərpicdən də deyildi. Mən ora gedəndə Rayon Partiya Komitəsinin sınıq-salxaq bir binası var idi. O vaxt Milli Təhlükəsizlik Komitəsində işləyirdim, rayon şöbəsinin iki otaqdan ibarət binası var idi. Havalar soyuq idi, şaxtadan dondum, orada otura bilmədim. Amma deyirsən ki, indi Yardımlıda mişar daşından evlər tikilir. Yəqin ki, mişar daşı Bakıdan aparılıb. Bakıdan mişar daşı aparasan, ev tikəsən, - bu, çox yaxşı haldır".

Qazanılan uğurlar müdrik rəhbərin həyata



keçirdiyi ardıcıl, məqsədyönlü islahatların nəticəsi idi. Ümummilli Liderin inkişaf strategiyasını uğurla, yüksək işgüzarlıqla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev ucqar rayonun inkişafına, tərəqqisinə xüsusi diqqət yetirir. Ölkəmizin başçısı 2006-cı il oktyabr ayının 23-də Yardımlıya növbəti səfəri zamanı **nüfuzlu ağsaqqal, respublikanın əməkdar həkimi Zeyni Adiyev** dövlətimizin başçısına rayon əhalisinin minnətdarlığını, ən xoş arzularını çatdıraraq deyib: "Mənim xeyli yaşım var, özüm canlı şahidəm ki, Yardımlı camaatı dövlət tərəfindən heç bir yardım görməyibdir. Əksinə, bir çox hallarda dövlətə yardım edibdir. Süfrəsində, tabağında nə var, hökumətə verib, özü ac qalıbdır. Amma bunun müqabilində o cür qüdrətli sovet dövləti uzun illər Yardımlıda, heç olmasa, bir məktəb binası tikmirdi. Yalnız ulu öndərimiz Heydər Əliyev hakimiyyətə gələndən sonra, - düzdür, elə bir vaxtda hakimiyyətə gəldi ki, onun Yardımlıya gəlməyə imkanı yox idi, amma Yardımlıya onun əməlləri gəlib çıxdı, - alimlər, mütəxəssislər Yardımlıya gəldilər, axtardılar, fikirləşdilər ki, bu rayonun iqtisadiyyatını qaldırmaq üçün nə etmək lazımdır. Möhtərəm Prezident, burada nə qədər binalar tikildi, üzüm bağları salındı, tütün plantasiyaları yaradıldı. Qızlarımız, gəlinlərimiz işləyib pul qazanmağa başladılar. Bunlar hamısı Sizin atanızın unudulmaz xidmətləridir.

Bax, yanında dayandığımız bu möhtəşəm xəstəxana binası Sizin atanızın yadigarıdır. Mən o zaman baş həkim işləyirdim. Bilirdim, görürdüm ki, burada tikinti işi aparmaq nə qədər çətindir. Əgər Heydər Əliyev olmasaydı, heç bir podratçı təşkilat bu işin altına girməzdi. Yalnız Heydər Əliyevin ciddi səyi, tələbkarlığı nəticəsində bu bina tez bir zamanda istifadəyə verildi.

Diqqətinizə çatdırım ki, bina 1983-cü ilin dekabr ayında istifadəyə verilmişdir. O zaman cənab Heydər Əliyev Moskvada idi və Həsən Həsənov bizi - baş həkimləri, raykomun katiblərini, icraiyyə komitələrinin sədrini, tikinti təşkilatlarının rəhbərlərini təcili Bakıya çağırdı. Bizə dedi ki, Heydər Əliyev Moskvadan gündə zəng edir, xəstəxanaların vəziyyətini soruşur. Tapşırığı bu oldu ki, nəyin bahasına olur-olsun, təcili surətdə bu tikintiləri başa çatdıraq. Nə qədər çətin bir işdir.

Amma indi görün, möhtərəm Prezident, Sizin rəhbərliyiniz dövründə, bu qısa bir müddətdə Yardımlıda nə qədər işlər görülübdür. Yaşlı adam kimi bu mənə röya, yuxu kimi görünür. Amma Allah bəzən yuxuları çin edir. Prezident sərəncam verib, yol da, qaz xətti də çəkilibdir. Biz buna görə hamımız Sizə minnətdarıq. Amma Sizin gəlib yardımlıları yoxlamağınız bizi çox məmnun edir. Bu, nədən irəli gəlir? Ondan irəli gəlir ki, Siz Azərbaycanın torpağını sevirsiniz, onun hər bölgəsini sevirsiniz. Siz Azərbaycan xalqını sevirsiniz. Onun hər bir vətəndaşını sevirsiniz.

Atanız dünyada məşhur dövlət xadimi, dünya siyasətinin korifeylərindən idi. Kiçik Azərbaycanda yaşayıb böyük dünya siyasətinə güclü təsir göstərə bilən belə bir şəxsiyyətin övladı bəs necə olmalıdır? Biz xoşbəxtik ki, belə bir övlad bizə, bizim Azərbaycan xalqına rəhbərlik edir. Bizim tarixçilərimiz, xalqımız nahaq yerə demirlər ki, Heydər Əliyev Azərbaycanın xilaskarıdır. Bəli, bu belədir. Möhtərəm Prezident, çox gözəldir ki, Sizə böyük inam var. Biz Sizə Heydər Əliyevin özü qədər inanırıq. Çünki verdiyiniz vədləri dəqiqliklə yerinə yetirirsiniz. Siz Heydər Əliyev tərəfindən müəyyən edilmiş o zəfər yolu ilə inamla, ilhamla irəli gedirsiniz. Azərbaycan xalqını inkişafın zirvələrinə doğru aparırsınız".

Dövlətimizin başçısı cənab İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində Yardımlı dinamik inkişaf yolundadır. Möhtərəm Prezidentimizin rəhbərliyi və davamlı qayğısı sayəsində illərlə həllini gözləyən, yerli sakinləri narahat edən problemlər həll olunub. **Rayonun tanınmış ziyalılarından, nüfuzlu ağsaqqallarından olan Himayət Mahmudov** deyir:

- Yardımlılılar yol cəhətdən uzun illər əziyyət çəkiblər. Möhtərəm Prezidentimizin göstərişi ilə 2005-ci ildə 53 kilometrlik Masallı-Yardımlı magistral avtomobil yolu genişləndirildi, əsaslı şəkildə bərpa edilərək yenidən quruldu. Həmin il sentyabr ayının 9-da möhtərəm Prezidentimiz Yardımlıya ilk səfərində yolun açılışında iştirak edərək sakinlərə xeyir-dua verdi. Bu yolun istifadəyə verilməsi rayonun iqtisadiyyatının inkişafına misilsiz töhfələr verdi. Kənd təsərrüfatı, bostan və bağçılıq məhsullarının istehsalı artırıldı. Yardımlıya yerli və xarici turistlərin axını yüksəldi.



Nə keçmiş sovet dönəmində, nə də müstəqilliyin ilk illərində rayonda təbii qaz olmayıb. Əhali uzun illər odun yanacağından istifadə etdiyindən qiymətli ağaclarla zəngin olan meşələrimiz qırılır, təbiətə, ekologiyaya ciddi ziyan dəyirdi. 2006-cı ildə mürəkkəb relyefə malik rayonun ərazisində dərin dərələrdən, şiş qayaların arasından, sıldırımlı yamaclardan, sərt döngələrdən keçərək Yardımlı şəhərinə qaz xətləri çəkildi. Ölkə başçısı 2006-cı il oktyabr ayının 23-də rayona ikinci səfəri çərçivəsində mavi yanacağın verilməsinə həsr olunmuş mərasimdə rayon ictimaiyyətinin nümayəndələri ilə səmimi görüşdü.







Yardımlının və ətraf kəndlərin mavi yanacaqla təmini problemi öz həllini tapır. Rayon mərkəzi və 18 kənd qazlaşdırılıb. Hamarkənd və Nisəqala kəndlərində yaxın günlərdə 230-a yaxın mənzildə mavi alov şölələnəcək.

Dövlətimizin başçısı 2013-cü il sentyabr ayının 4-də Yardımlıya növbəti səfəri zamanı Yardımlı-Deman yolunun açılışını edərək 13 min nəfər sakinin yaşadığı 23 kəndi əzab-əziyyətdən qurtardı. Bu yol üstündə olan Avaş və Arvana kəndlərinə əvvəllər maşınla 2 saata gedilirdisə, indi onu yarım saata qət etmək olur. Yolun çəkilişi sayəsində 1950-ci illərin əvvəllərində köçürülmüş Deman kəndi yenidən bərpa olunub. Bir vaxtlar zorla kənddən köçürülənlərin övladları ata-baba yurdlarına qayıdıb. Azərbaycan Prezidenti səfər zamanı Yardımlıda mərkəzləşdirilmiş su sisteminin açılışında da iştirak edib. Artıq rayon mərkəzində su problemi yoxdur. Rayon mərkəzində mərkəzləşdirilmiş kanalizasiya problemi də öz həllini tapıb.

Ölkə başçısının yüksək qayğısı sayəsində 10 min nəfər əhalinin yaşadığı 12 yaşayış məntəqəsini birləşdirən Yardımlı-Hamarkənd-Abbasabad, 5 yaşayış məntəqəsini birləşdirən 15 kilometrlik yerli əhəmiyyətli Bozayran-Vərgədüz-Sırıq, Sırıq-Əfçədulan-Horavar-Əngövül-Zəngələ-Vərov-Keçələkəran avtomobil yolları əsaslı təmir olunub. Viləş və Ağçay çayları üzərində körpülər salınıb. İndi Bürzünbülə, Bozayrana, Vərgədüzə, Demana, Arvanaya və digər ucqar kəndlərə aparan yollar rahatlığı ilə seçilir. Yerli əhali və qonaqlar yolların rahatlığından məmnunluqlarını ifadə edirlər.

Kəndlərin içməli su problemi də həll olunur. Əhalisinin sayı 12 min nəfər olan 18 kəndin sakinləri üçün Sineyir adlanan uzaq ərazidən içməli su xətti çəkilib. Bu, təkcə rayonda su problemini həll etməyib, təsərrüfat işlərini də canlandırıb.

Yardımlıda elektrik enerjisi problemi də aradan qaldırılıb. Rayona elektrik enerjisi xətti 1950-ci illərin sonu, 60-ci illərin əvvəllərində çəkilib. Rayonun elektrik enerjisi sistemində əsaslı yenidənqurma işləri aparılıb. Yardımlı şəhərində və ətraf kəndlərdə elektrik enerjisi xətləri kabelləşdirilib. Rayona fasiləsiz enerji verilişi təmin olunub. Müasir məktəblərin inşasına diqqət artırılıb. Son illər rayonda 60-dən çox məktəb binası tikilib və ya əsaslı təmir edilib. Təhsil ocaqlarının maddi-texniki bazası, müasir informasiya texnologiyaları ilə təchizatı yaxşılaşıb.

Yardımlı şəhərinin girişindən başlayaraq yolun hər iki tərəfində müasir zövqə uyğun istinad divarları hörülüb, yollar genişləndirilib, səkilər yenidən qurulub, küçə işıqları quraşdırılıb. Yeni tikilən inzibati və yaşayış binaları, Ümummilli Liderin adını daşıyan mərkəz və park, gənclər parkı, müasir idman kompleksi şəhərin gözəlliyini daha da artırır.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin davamlı və tükənməz qayğısı Yardımlıya yeni nəfəs, yeni həyat gətirib, qəlblərdə ümid, inam çırağı yandırıb. Rayonun sosial-iqtisadi inkişafının sürətləndirilməsi və problemlərinin həlli adamlarda təkcə nikbinlik yaratmır, həmçinin müstəqilliyin nə qədər əvəzsiz nemət olduğunu sübut edir. Ucqar dağ rayonunun qədirbilən insanları müstəqil Azərbaycanın vətəndaşları olduqlarına görə qürur hissi keçirir, gələcəyə böyük ümidlə gedirlər.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**